Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin
Kollegiyasının 2013-cü il 01 iyul tarixli,
25 nömrəli qərarı ilə təsdiq edilmişdir

# Tibbi arayışların elektron registrindən məlumatların verilməsi üzrə inzibati reqlament

## 1. Ümumi müddəalar

**1.1. Elektron xidmətin adı:** Tibbi arayışların elektron registrindən məlumatların verilməsi.

**1.2. Elektron xidmətin məzmunu:** Müayinədən keçmiş şəxslər tərəfindən tibbi arayışların elektron formada əldə edilməsindən ibarətdir.

**1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:**

**1.3.1.** "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinin birinci və beşinci hissələri;

**1.3.2.** "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu və 12-ci maddələri;

**1.3.3.** Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 8.27-ci bəndi;

**1.3.4.** "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 2-1-ci hissəsi;

**1.3.5.** Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 21 oktyabr tarixli 1055 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı"nın VII bölməsinin 7.3.10-cu yarımbəndi;

**1.3.6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 7 fevral tarixli 38 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sənədlərin reyestrindən istifadəyə dair Qaydalar";

**1.3.7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektron xidmət növlərinin Siyahısı"nın 14.12-ci bəndi.

**1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı:** Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi(bundan sonra – "Nazirlik")

1.5. **Elektron xidmətin digər icraçıları:** yoxdur

1.6. **Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:** Bü sahədə göstərilən elektron xidmət tam avtomatlaşdırılmışdır.

1.7. **Elektron xidmətin icra müddəti:** Xidmətin icra müddəti istifadəçi tərəfindən tələb olunan məlumatların informasiya sistemi tərəfindən emalı müddətinə bərabərdir.

1.8. **Elektron xidmətin göstərilməsinin nəticəsi:** Müayinədən keçmiş şəxslər tibbi arayışları elektron formada onlayn əldə edirlər.

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

2.1. **Elektron xidmətin növü:** interaktiv

2.2. **Elektron xidmət üzrə ödəniş:** ödənişsiz

2.3. **Elektron xidmətin istifadəçiləri:** Fiziki şəxslər

2.4. **Elektron xidmətin təqdim olunma yeri:** http://www.health.gov.az; http://www.e-gov.az

2.5. **Elektron xidmət barədə məlumatlandırma:**

İnternet ünvanı: http://www.health.gov.az; http://www.e-gov.az

Elektron poçt: office@e-health.gov.az

Telefon: 012 431-38-28

2.6. **Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:**

Elektron xidmətdən istifadə etmək üçün istifadəçi Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsinin nömrəsini və pin kodunu daxil etməlidir.

## 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

### 3.1. Elektron xidmətlər üçün sorğu:

**3.1.1 Sorğunun formalaşdırılması:** İstifadəçi elektron xidmətin təqdim edildiyi internet səhifəsində şəxsiyyət vəsiqəsinin nömrəsini və pin kodunu daxil edərək qeydiyyatdan keçir. Qeydiyyatdan keçdikdən sonra özünə istifadəçi adı və şifrə təyin edir.

**3.1.2. Sorğunun qəbulu:** Bu reqlamentin 3.1.1-ci bəndində göstərilən məlumatlar düzgün daxil edildikdə, sorğu qəbul olunur.

**3.2. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:**

**3.2.1. Sorğunun yerinə yetirilməsindən imtina halları:** Bu reqlamentin 3.1.1-ci bəndində göstərilən məlumatlar düzgün daxil edilmədikdə, sorğunun yerinə yetirilməsindən imtina olunur.

**3.2.2. Sorğunun qəbulu:** Bu reqlamentin 3.2.1-ci yarımbəndində nəzərdə tutulan qaydada sorğunun yerinə yetirilməsindən imtina edilmədikdə sorğu qəbul olunur.

**3.3. Sorğunun icrası:**

**3.3.1. Ardıcıl hər bir inzibati əməliyyat, o cümlədən məsul şəxs haqqında məlumat:** Elektron xidmət tam avtomatlaşdırıldığı üçün onun icrası ilə bağlı inzibati əməliyyatlar mövcud deyil.

**3.3.2. İnzibati əməliyyatda iştirak edən digər dövlət orqanı haqqında məlumat:** Yoxdur.

**3.4. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:**

**3.4.1. Nəzarət forması:** Daxil olan müraciətlərin avtomatlaşdırılmış rejimdə təşkil olunmuş mütəmadi monitorinqi.

**3.4.2. Nəzarət qaydası:** Monitorinq nəticəsində müraciətlər barədə toplanılan məlumatlar xüsusi məntiqi sxemlər üzərində işlənilmiş proqram təminatı vasitəsilə yoxlanılır, müraciətlərin tamlığı və cavabların verilmə sürətinə dair eləcə də icra zamanı baş verən nöqsanlar barədə hesabatlar tərtib olunur. Həmin hesabatlar sistemin fəaliyyətinə məsul olan şəxslər tərəfindən daim izlənilir. Elektron xidmətin yerinə yetirilməsinə nəzarəti Nazirliyinin Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzi həyata keçirir.

**3.5. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:**

**3.5.1. İstifadəçinin şikayət etmək hüququ haqqında məlumat:** İstifadəçi elektron xidmətlə bağlı onu razı salmayan istənilən məsələ barədə yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) inzibati qaydada və məhkəməyə şikayət edə bilər.

**3.5.2. Şikayətin əsaslandırılması və baxılması üçün lazım olan informasiya:** Şikayət kağız üzərində və elektron qaydada tərtib oluna bilər. Kağız üzərində şikayət Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin poçt ünvanına, elektron şikayət isə bu reqlamentin 2.5-ci bəndində göstərilən elektron poçt ünvanına göndərilməlidir.

Şikayətdə vətəndaşın adı, atasının adı, soyadı, ünvanı, poçt və ya elektron poçt ünvanı, yaxud işlədiyi yer göstərilməlidir.

**3.5.3. Şikayətin baxılma müddəti:** Şikayətə "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 78.1-ci maddəsinə əsasən 1 ay müddətində baxılır.